*UOT 37.0*

***Elmir Arif oğlu İsgəndərov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
https://orcid.org/ 0009-0001-8183-8862

# TƏRBİYƏ PRİNSİPLƏRİ NLP ASPEKTİNDƏ

***Эльмир Ариф оглы Искендеров***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

## ПРИНЦИПЫ ВОСПИТАНИЯ В АСПЕКТЕ НЛП

***Elmir Arif Iskenderov***
*doctorial student in the program of doctor of philosophy*
*of the Institute of Education of the Republic of Azerbaijan*

## EDUCATION PRINCIPLES IN NLP ASPECT

**Xülasə.** Bütün dövrlərdə olduğu kimi, hazırkı dövrdə də gənc nəslin elmi dünyagörüşünə, yüksək əxlaqi keyfiyyətlərə malik olan, ahəngdar inkişaf etmiş, ictimai cəhətdən fəal olan, mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi özündə birləşdirən şəxsiyyət kimi tərbiyə olunması, formalaşdırılması əsas vəzifələr sırasındadır. Tərbiyənin məzmunu, məqsədi, vəzifələri, prinsipləri, planlılığı, qanunauyğunluqları bəzi nüanslarına görə dəyişsə də, əsas etibarilə bütün dövrlər üçün oxşar əlamətləri daşımışdır. Ancaq eyni sözləri tərbiyənin üsul, forma və metodları ilə bağlı demək olmaz. Dövr dəyişdikcə, cəmiyyətdə müəyyən islahatlar getdikcə, xüsusilə informasiya texnologiyaları sürətlə inkişaf etdikcə tərbiyədə də metodları dəyişdirmək, yeni üsul və vasitələr tətbiq etmək zərurəti yaranır.

Müasir dövrdə öyrənmə əsaslı bu metodologiyalardan biri Neyro Linqvistik Proqramlaşdırmadır (qısa şəkildə NLP). Hazırda NLP-dən bir çox sahələrdə, o cümlədən təhsil, idarəetmə, ünsiyyət, insan resursları, psixoloji xidmət və s. məsələlərdə istifadə olunur. NLP-nin qurucularından olan C. Qrinder onu dünyadakı uğurlu düşüncə və fəaliyyət standartlarının araşdırılıb istifadə olunması üçün planlanmış bir sürətli öyrənmə strategiyası, NLP-nin linqvistik hissəsinin tədqiqatçısı R. Dilts onu yararlı və faydalı olan hər şey, A.V. Uhde onu insanlararası ünsiyyəti əsas alan sistemli bir çalışma, C. Okonor onu istifadə edilən dilin beyin və daha sonra ortaya çıxan davranışlar üzərindəki təsiri adlandırmışdır.

Bu məqalədə NLP texnologiyasından tərbiyə işində istifadənin imkanları araşdırılmış, tərbiyə prinsiplərinə yeni nöqteyi-nəzərdən yanaşılmış, tərbiyəyə müasir yanaşma baxımından tərbiyə xüsusiyyətləri ilə NLP-nin əsas prinsiplərinin qarşılıqlı əlaqəsi araşdırılmışdır. Bu əlaqələr tərbiyəçi mövqeyində olan hər bir kəsə elmi, pedaqoji, psixoloji və metodik cəhətdən istiqamət verməkdə mühüm əhəmiyyətə malikdir. Tərbiyənin bütün dövrlər üçün aktual olan prinsiplərinə NLP aspektindən yanaşdıqda yeni üsul və vasitələr müəyyənləşir, tərbiyə prosesinin şəxsiyyəti hərtərəfli əhatə edərək kompleks şəkildə tətbiq olunma imkanları genişlənir.

***Açar sözlər:*** *tərbiyə, NLP, uğursuzluq, davranışlar, ünsiyyət*

**Резюме.** Как и во все периоды, в нынешнюю эпоху воспитание и формирование подрастающего поколения как личности, обладающей научным кругозором, высокими нравственными качествами, гармонично развитой, социально активной, сочетающей в себе духовное богатство, нравственную чистоту и физическое совершенство, является одной из главных задач. Хотя содержание, цель, задачи, принципы, планирование и закономерности образования менялись в силу некоторых нюансов, в основном они имели сходные особенности для всех периодов. Однако этого нельзя сказать о методах, формах и приемах воспитания. По мере смены эпох происходят определенные реформы в обществе, тем более, что информационные технологии стремительно развиваются, возникает необходимость изменения методов и применения новых приемов и средств в образовании.

Одной из таких методологий, основанных на обучении, в наше время является нейролингвистическое программирование (сокращенно НЛП). В настоящее время НЛП используется во многих областях, включая образование, управление, коммуникацию, человеческие ресурсы, психологические услуги и др. используется в данных вопросах. Дж. Гриндер, один из основателей НЛП, назвал его стратегией быстрого обучения, предназначенной для изучения и использования успешных стандартов мышления и действия в мире, Р. Дилтс, исследователь лингвистической части НЛП, назвал ее всем полезным. А.В. Уде назвал это систематическим исследованием, основанным на межличностном общении, Дж. О'Коннор назвал его влиянием используемого языка на мозг и последующее поведение.

В данной статье были исследованы возможности использования технологии НЛП в воспитательной работе, подход к принципам обучения с новой точки зрения, а также взаимодействие между образовательными характеристиками и основными принципами НЛП с точки зрения современного подхода к обучению. Эти отношения имеют большое значение в обеспечении научной, педагогической, психолого-методической ориентации каждого в должности обучающего. При подходе к принципам обучения, актуальным во все времена, с точки зрения НЛП определяются новые методы и средства, расширяются возможности комплексного применения образовательного процесса, всесторонне охватывающего личность.

***Ключевые слова:*** *НЛП, воспитание, неудача, поведение, общение*

**Summary.** As in all eras, in the current era, educating and shaping the young generation as a person who has a scientific outlook, high moral qualities, is harmoniously developed, socially active, combines spiritual wealth, moral purity and physical perfection is one of the main tasks. Although the content, purpose, tasks, principles, planning, and regularities of education have changed due to some nuances, they have basically had similar characteristics for all periods. However, the same cannot be said about the methods, forms and methods of education. As the era changes, certain reforms in society take place, especially as information technologies develop rapidly, there is a need to change methods and apply new methods and tools in education.

One of these learning-based methodologies in modern times is Neuro Linguistic Programming (NLP for short). Currently, NLP is used in many fields, including education, management, communication, human resources, psychological services, etc. used in issues. J. Grinder, one of the founders of NLP, called it a rapid learning strategy designed to study and use successful standards of thought and action in the world, R. Dilts, a researcher of the linguistic part of NLP, called it everything useful and useful, A.V. Uhde called it a systematic study based on interpersonal communication, J. O'Connor called it the effect of the language used on the brain and later behavior.

***Key words:*** *NLP, parenting, failure, behaviors, communication*

Bildiyimiz kimi, tərbiyə psixologiyası müxtəlif yaş dövrlərində şəxsiyyətin formalaşmasının məqsədyönlülüyünü və şəxsiyyətin inkişafına sosial amillərin təsir dərəcəsini öyrənir [1, s. 9]. Neyro-Linqvistik Proqramlaşdırma nəzəriyyəsi istifadə etdiyi metodikalarda insan iradəsinin imkanlarının geniş olduğundan çıxış edir. O, həmçinin insanın özü və başqaları ilə ünsiyyətinin daha səmərəli şəkildə formalaşmasına xidmət edir. NLP-nin qurucularından R. Bendler onu "təlim prosesi" adlandırmışdır [2, səh 15]. Fikrimizcə, NLP prinsiplərinin müvafiq üsul və vasitələrlə tərbiyə işinə tətbiqi bu baxımdan uğurlu nəticələr verə bilər. Bu məqsədə xidmət edən əsas NLP prinsiplərindən bir neçəsini tərbiyə zəminində nəzərdən keçirək.

*Beyin və bədən eyni bir sistemin üzvi şəkildə əlaqələnmiş hissələridir.* İnsan orqanizminin heç bir hissəsi tamamilə müstəqil deyildir. İdrak prosesləri fiziologiyaya, fizioloji dəyişikliklər də idrak prosesinə təsir edir. H. Alder şüursuzluqda belə bu qarşılıqlı təsirin davam etdiyini bildirir: "Təhtəlşüur vəziyyətdə belə, biz şüurlu olaraq nə baş verdiyinin fərqində olmadığımız zamanda da beynimiz bədənimizlə mütəmadi qarşılıqlı əlaqədədir. "Düşüncələr"imizin böyük əksəriyyəti qeyri-iradidir və bunlar NLP-yə görə, fəaliyyətimizdə əhəmiyyətli rol oynayır. Dəyişmək üçün iki yolu var: bədən dili və davranışlar vasitəsilə; düşüncə tərzi vasitəsilə. Bu iki yola da bələd olmaq və bunlardan istifadə etmək fəaliyyətimizə əlavə dəstək verəcəkdir" [3, s. 38].

NLP-də təfəkkür tərzini dəyişdirməklə fizioloji dəyişikliklərə nail olmağın mümkünlüyü şərh edilir. Məsələn, insanlara güvənməyən, daimi bir narahatlıq içində olan, təşviş yaşayan insanın bədən dilində bu düşüncələrə uyğun əlamətlərə

(səs tonunun aşağı olması, qamətin əyilməsi, ürək döyüntülərinin sürəti və s.) rast gəlmək olar. Eyni zamanda, özündən əmin, cəsarətli, özünəinamlı insan da bədən dilindən müəyyən edilə bilər. Eyni vəziyyət ətalət halları üçün də keçərlidir. Yəni bədən uzun müddət passiv qalarsa, düşüncə də süstləşə bilər. İnsan hərəkətdə olduğu halda düşüncə çevikliyi də təmin oluna bilər.

Tədqiqatlar göstərir ki, [4, s. 433] bədən dilini şüurlu şəkildə dəyişdirmək duyğuların dəyişməsinə səbəb olur. Yeri gəlmişkən, özünü yaxşı hiss etmədiyi anda insan çətinliklə də olsa, gülümsəməyə çalışdığı zaman xoşbəxtlik hormonu olan serotonin ifraz olunur və insan özünü yaxşı hiss etməyə başlayır. A. Robins bunu fokus-dil-bədən üçbucağında dəqiqliklə ifadə etmişdir [5].

Tərbiyə prosesi yalnız verbal zəmində gerçəkləşmir. Tərbiyəçi mövqeyindəki şəxs uşaqla ünsiyyət zamanı işlətdiyi ifadələrə, həmçinin bədən dilinə diqqət etməlidir. O, təlqin etdiyi dəyərlərlə bağlı özünün nümunə ola bilmə faktını nəzərə almalıdır. Eyni zamanda, uşaq özünün hər hansı bir problemini aşkar ifadə etmədikdə belə, tərbiyəçi onun bədən dilindən hər hansı bir problemin olduğunu duya bilmək həssaslığına malik olmalıdır.

*İnsan hər bir davranışını subyektiv olaraq pozitiv niyyətlə əsaslandırmağa meyillidir.* İnsanlar digər insanların davranışlarını, bu davranışların pozitiv ya da neqativ olduğunu öz baxış bucaqlarına görə qiymətləndirirlər. NLP-nin bu prinsipinə görə, yalan danışan insan da, haqsız yerə adam öldürən də, oğurluq edən də, böhtan atan da, əxlaqsız sözlərdən istifadə edən də bunu öz nöqteyi-nəzərindən yaxşı niyyətlə edir. Tərbiyəçilər tərbiyə olunanların davranışlarına bu prinsiplə yanaşdıqları təqdirdə qarşılıqlı anlaşmaya nail ola bilmə ehtimalları yüksək olur. Təbii ki, iş bununla bitmir. Davranışın arxasındakı niyyətə fokuslanmaq davranışın özünün və təsirinin neqativ olması faktını aradan qaldırmır. Sadəcə olaraq, bu cür yanaşma tərzi əvvələ tərbiyə olunan şəxsdə anlaşılma, başa düşülmə, qəbul edilmə hissinin oyanmasına səbəb olacaqdır. İkincisi, tərbiyəçi bilərəkdən əvvəlcə diqqəti davranışın özünə yox, niyyətinə yönəltməklə qarşılıqlı əlaqə quraraq tərbiyə olunanı davranışın nəticələri istiqamətində düşünməyə sövq edir. Bu zaman tərbiyəçi niyyətin pozitiv olduğu kimi, təzahür formasının da adekvat olmasının vacibliyinə diqqəti yönəldir.

Bu prinsip insanda empatiya hissini gücləndirməyə kömək edir. Məlumdur ki, "empatiya, sağlam ünsiyyət qura bilmək üçün ən vacib xüsusiyyətlərdən biridir" [6].

*İnsanlar hər zaman ən düzgün seçimi etdikləri fikrindədirlər.* NLP sahəsində aparılan tədqiqatlar [7] göstərir ki, təcrübələrin, inancların, stereotip kodlaşmaların təsiri ilə insan özü üçün o an ən yaxşı hesab etdiyi seçimə üstünlük verir. C. Kelinin (1905-1967) şəxsi konstrukt nəzəriyyəsinə görə, insan öz təcrübəsini və həyati prosesləri ikiqütblü (yaxşı və pis, ağıllı və dəli və s.) sistem daxilində oxşarlıq və fərqlilik zəminində şərh və inkişaf etdirir [8].

NLP həm də insanı müəyyən qəlibləşmiş seçimlərdən kənara çıxmağa sövq edir. Nəzərə almaq lazımdır ki, insan mövcud seçimlərdən ən yaxşı hesab etdiyini edir. Halbuki onun bilmədiyi seçimlər də var. Seçim sayını bacardıqca çoxaltmaq insanın həyatına rəngarənglik gətirəcək və o seçim edərkən özü üçün daha münasibini seçmə imkanını əldə edəcək.

Məlumdur ki, NLP insanın düşüncə və davranışlarının sözlər vasitəsilə proqramlaşdırılması deməkdir. Proqramlaşma bir növ qəlibləşmə kimi səslənə bilər. Biz, eyni zamanda, NLP-nin yeniliyə açıq olmanın proqramlaşdırılması yönünü təklif edirik. Mövcud modellərdən seçim etməklə yanaşı, yeni modellərin mümkünlüyünə diqqət yetirilməsini təşviq edirik. Bu zaman səbəb-nəticə əlaqələrinin və məntiqi ardıcıllığın, başqa sözlə, sırf təfəkkür zəminli proseslərə deyil, təxəyyül zəminli düşüncələrlə əməliyyat aparılmasına üstünlük verilməsini məqsədəuyğun hesab edirik. Təxəyyül zəminində yaranmış modellərin səbəb-nəticə əlaqələri və məntiqi strukturları sonradan əsaslandırıla və şərh edilə bilər. Mühüm olan yaranmış yeni modelin baş verənləri və ya baş vermə ehtimalı olanları hər hansı bir sağlam düşüncə zəminində izah edə və ya əsaslandıra bilməsidir. NLP-də proqramlaşdırma dinamik xarakter daşıyır. Yəni bir davranış effektiv olmadığı halda başqa bir model tətbiq oluna bilər. Bir seçimlə yanaşı başqa ehtimalları da düşünmək lazımdır. Bu ehtimallar ilk baxışda elmi, məntiqi əsaslı görünməyə də bilər. Seçimləri düşünərkən məntiq çərçivəsindən kənara çıxmaq, daha geniş hərəkət

sahəsinə malik olan təxəyyülün imkanlarından istifadə etmək məqsədəuyğundur.

Yeniliyə açıq olmaqla bağlı proqramlaşmanın əhəmiyyətini dərk etmək üçün cəmiyyətdə narahatlıq doğuran, hətta həyəcan təbili çalmağa səbəb olan müxtəlif sahələrdəki statistik göstəricilərə nəzər salmaq kifayətdir. Boşanma, intihar, ailə zəminində və uşaqlar arasında şiddət və zorakılıq, bulinq və s. kimi halların qarşısının alınması üçün keçmiş modellərdən istifadə artıq istənilən nəticəni vermir. Buna görə də yeni modellərin təklif olunması zərurəti ortaya çıxır. Yeniliyə açıq olmaq şəklindəki proqramlaşdırma fərdi öz məhdud seçimlərindən, yalnız subyektiv təcrübəyə əsaslanan qərarlardan kənara çıxmağa, alternativ yolların da olduğu fikrini mənimsəməyə sövq edir.

Uşaq hər hansı bir neqativ davranışa yol vermişsə, o an ən uyğun seçiminin həmin davranış olduğunu hesab etdiyi nəzərə alınmalıdır. Uşağı davranışa görə tənqid etməkdənsə, o davranışın arxasındakı pozitiv niyyəti aşkar etmək, həmçinin uşağın, bu davranışı özünün ən yaxşı seçimi kimi müəyyənləşdirməsinin səbəbi ilə maraqlanmaq lazımdır. Uşaqların şüuraltı beyin xəritələrinin körpəlikdən etibarən valideynləri başda olmaqla, ətraf mühit tərəfindən formalaşdırıldığını nəzərə alsaq, müvafiq anda davranış üçün seçim variantlarının azlığının, eyni zamanda həmin seçimi etməsinin yalnız onların səhvi olmadığını asanlıqla başa düşmək olar. Deməli, tərbiyəçinin əsas öhdəliklərindən biri tərbiyə olunanlara onların pozitiv seçimlərini artıracaq müxtəlif xəritələr təqdim etməkdir. Uşağın beynində "yaxşı"nın və ya "doğru"nun tək yox, bir neçə forması olarsa, o, doğrulardan birini seçər. Beləliklə, doğru seçim şansı çoxaldıqca yanlış ehtimalı azalar.

*Uğursuzluq yoxdur, təcrübə vardır.* Təcrübə – həyatda aşılan çətinliklərdən çıxarılan nəticələrin cəmidir. İnsan hər hansı bir davranış istənilən nəticəni vermədikdə bunu uğursuzluq adlandırmamalıdır. Əgər bu davranışın yanlış nəticələndiyini öyrəndisə, bir daha onu təkrar etməməsi və bunu analoji hallarda da nəzərə alması təcrübə adlanır və bu təcrübə, əslində, uğurdan başqa bir şey deyildir. Çünki insan nəyi etməli olduğunu öyrəndiyi kimi, nəyi etməməli olduğunu da öyrənməlidir.

Uğursuzluğu uğura gedən yolda keçilən dərs kimi qəbul etmək lazımdır. Bu baxımdan NLP-də uğursuzluq terminindən istifadə edilmir. İstənilən nəticə əldə edilmədikdə bunu "uğursuzluq" yox, "təcrübə" sözü ilə ifadə etmək daha düzgündür. Uğursuzluq adlandırılan təcrübə hər hansı bir məqsədin reallaşmaması ilə yanaşı nə isə öyrədir [3, s. 36].

Tərbiyəçi mövqeyindəki şəxs tərbiyə məqsədilə atdığı bütün addımları düzgün qiymətləndirməyi bacarmalıdır. Belə ki, tərbiyəçi tərbiyə işində bir metodu tətbiq edib istədiyi nəticəni əldə edə bilmədiyi təqdirdə bu metoda sonrakı cəhdin uğur ehtimalını artıran təcrübə kimi baxmalıdır. Tərbiyəçinin əsas xüsusiyyətlərindən biri ümidsizlik anlayışının onun lüğət tərkibində olmaması, əksinə, mütəmadi olaraq özünə və başqalarına ümid aşılamasıdır. Tərbiyəçi özünün yiyələndiyi bu keyfiyyəti tərbiyə olunanlara da ötürməli, uğursuzluq sözünün təcrübə sözü ilə əvəz olunmasına nail olmalıdır. Tərbiyənin əsas prinsiplərindən birinin nikbinlik prinsipi olduğu məlumdur. Nikbinlik prinsipi tərbiyə edən şəxsdə tərbiyə olunana, onun imkanlarına inam hissi aşılayır [9, s. 174]. Gələcəyə münasibətdə nikbinliyin, pozitiv gözləntilər mühitinin formalaşması inkişafa motiv və stimul yaratmaqla bu sahədə böyük uğurlara zəmin yaradır.

*Davranış kimlik deyildir.* Bir fakt şəxsiyyətin ümumiləşmiş obrazı, onun yeganə səciyyəvi xüsusiyyəti kimi qəbul edilməməlidir. Bir çox hallarda insanların davranışları onların kimlikləri, şəxsiyyətləri, mənlikləri ilə eyni tutulur. Bu da dildə müxtəlif formalarda təzahür edir. Aşağıdakı cümlələrə nəzər salaq:

*"Mən bacarıqsızam!"*
*"Olduqca məsuliyyətsizdir!"*
*"Nə pis uşaqsan sən!"*

Göründüyü kimi, bu nümunələrdə hər hansı bir davranış bütünlükdə şəxsin kimliyi ilə eyniləşdirilmiş formada ifadə edilmişdir. Halbuki bu cümlələr aşağıdakı şəkildə deyilməli idi:

*"Mən bunu bacarmadım".*
*"Bu cür davranmaq məsuliyyətsiz hərəkətdir".*
*"Bu davranış düzgün deyil".*

A. Korzibski "to be" (olmaq) feilinin iki təhlükəli istifadəsini müəyyənləşdirmişdir: birincisi, kimlik olaraq "is" (-dır[4]) ("Arzu müəllimdir"); ikincisi, hökm olaraq "is" ("Qonşumuz avaradır" və ya "Bu yarpaq yaşıldır") şəklindədir. "To be" feilində ortaq məxrəcə gəlmək nəzərdə tutulmur. Bir şey ya odur, ya da deyildir.

Buna görə də ümumiləşdirmələrə və dəqiq olmayan hökmlər çıxarmağa səbəb olur. Məsələn; Arzu eyni zamanda anadır, həyat yoldaşıdır, tələbədir, şahmatçıdır, yarımştat dizaynerdir və s. Beləliklə, Arzu kimdir? Bununla da Arzu haqqındakı real anlayış itirilmiş olur [10, s. 144]. Bu cür ifadələr NLP-də "e-prime" olaraq adlandırılır.

Davranış şəxsiyyət keyfiyyəti kimi ümumiləşdirildiyi zaman dinamik olmayan bir vəziyyət ortaya çıxır. Ünsiyyət zamanı konkret davranışa deyil, şəxsiyyətə yönəlik statik, yəni donuq bir ittiham ifadə olunduqda qarşı tərəf öz davranışının səbəbini izah etmək əvəzinə, şəxsiyyətini müdafiə etməyə çalışır və bir çox hallarda qarşılıqlı ittihama təhrik edilmiş olur. Şəxsiyyət ayrı-ayrı fikir və davranışlarla tam ehtiva olunmur. Kimliyi dəyişdirmək davranışı dəyişdirməkdən qat-qat çətindir [11, s. 36]. Tərbiyəçi hər hansı bir neqativ davranış səbəbilə tərbiyə olunanın şəxsiyyətini tənqid hədəfinə çevirməməli, davranışın yanlış olduğunu vurğulamaqla tərbiyəolunanla birlikdə davranışa fokuslanmalıdır. Bu, tərbiyəolunanın mənlik şüurunun daha adekvat formalaşmasını təmin edəcək, özünüqiymətləndirmə meyarlarının düzgün qurulmasına səbəb olacaqdır. Məlumdur ki, uşağın mənlik şüurunun formalaşmasına ətrafdakı adamların onun haqqında formalaşmış təsəvvürləri və qənaətləri əhəmiyyətli şəkildə təsir edir [12, s. 173].

Beləliklə, bu məqalədə NLP-nin qeyd olunan prinsiplərinə verilən şərhləri ümumiləşdirərək ondan tərbiyə prosesində üzvi şəkildə istifadənin əhəmiyyətli müsbət nəticələr verəcəyi qənaətinə gəlmək olar. Valideynlər, müəllimlər, pedaqoqlar, tərbiyə işi ilə məşğul olan bütün şəxslərlə bu sahədə maarifləndirmə işi aparılarsa, onlar bu prinsipləri birlikdə və düzgün şəkildə tətbiq etdikləri zaman tərbiyə prosesinin daha uğurlu bir şəkildə həyata keçirilməsinə nail olacaqlar.

**Problemin aktuallığı.** Tərbiyə prosesində artıq elə metodikalardan istifadə etmək lazımdır ki, tərbiyə olunan şəxs ona aşılanan hər hansı bir keyfiyyəti daxilən qəbul etsin, əsaslı şəkildə mənimsəsin və onu öz yönəlişliyinə çevirməyi bacarsın. Xüsusilə xarici təsirlərə deyil, daxili yönəlişliyə və inama əsaslanan metodikalar daha səmərəli hesab edilə bilər.

**Problemin elmi yeniliyi**. Tərbiyə prosesində NLP-nin səmərəli metodlardan biri olduğu əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti**: Tədqiqatdan əldə olunmuş nəticələrdən təlim-tərbiyə ilə bağlı işlərin həyata keçirilməsində, cəmiyyət, sosial mühit, ailədə qarşılıqlı münasibətlərin düzgün istiqamətlənməsində valideynlər, müəllimlər, məktəb psixoloqları və tərbiyə işi ilə məşğul olan digər şəxslər tərəfindən geniş istifadə edilə bilər.

**Ədəbiyyat:**

1. B. Əliyev, K. Əliyeva, R. Cabbarov: Pedaqoji psixologiya. -Bakı, 2011. -256 s.
2. R. Bandler, J. Grinder: "NLP Değişim için beyninizi kullanın" ("Using Your Brain for a Change". 1985). -İstanbul, 2016. -216 s.
3. Dr. Harry Alder: "Yöneticiler için NLP" ("NLP for Managers"). -İstanbul, 2002. Sistem yayıncılık. -288 s.
4. Allan & Barbara Pease: "Mimik ve hareketlerin ardındaki gizli anlam — Beden dili" ("The Definitive Book of Body Language").- İstanbul, 2018. -436 s.
5. HYPERLINK "https://www.tonyrobbins.com/stories/unleash-the-power/discover-your-peak-state/" https://www.tonyrobbins.com/stories/unleash-the-power/discover-your-peak-state/
6. Begüm Çelebi: "Neden iletişemiyoruz? İletişimde empatinin gücü". 28 iyul, 2016. HYPERLINK "http://www.ogrencikariyeri.com" www.ogrencikariyeri.com
7. Richard Youell, Christina Youell. Etkili NLP becerileri. -İstanbul, 2022. - 206 s. Səh 78; Engin Yılmaz. Öğrenciler ve öğretmenler için NLP. -İstanbul, 2004. -122 səh. Səh 5; Cemal Kondu. Herkes için NLP. -İstanbul, 2010. -96 s. .
8. Kelly, G.A. The psychology of personal constructs (2 volumes). New York: Academic Press. P. 64
9. Ə. Bədəlova: "Təlim-tərbiyə". -Bakı, 2015. -296 s.
10. Harry Alder & Beryl Heather: "21 günde NLP" ("NLP in 21 Days"). -İstanbul, 2001. -336 s.
11. Nil Gün: "NLP. – Zihninizi kullanma kılavuzu". -İstanbul, 2017. -224 s.
12. Q. Əzizov: "Psixologiya". -Bakı, 2011. -238 s.

**E-mail:** isgenderlielmir@gmail.com

**Rəyçilər**: *psixol.elm. dok., dos.* **E.B. Bəylərov,**
*psixol.ü.fəls.dok., dos.* **N.T. Rzayeva**
**Redaksiyaya daxil olub:** 15.05.2023